# Müharibənin ilk günü həlak olsalar da...

***Düz iki il öncə, sentyabrın 27-də Azərbaycanın tarixində, qəhrəmanlıq salnaməsində yeni, şərəfli bir səhifə açıldı. Bu, rəşadətli Azərbaycan əsgərinin zəfər yürüşünün başlanmasından soraq verən, qanla yazılan səhifə idi. Həmin gün Azərbaycan Ordusu Ermənistanın növbəti genişmiqyaslı hərbi təxribatına cavab olaraq Vətən uğrunda ölüm-dirim savaşına qalxdı. Silahlı Qüvvələrimiz bütün dünyanın suveren Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdığı Qarabağı və ətraf rayonları düşmən işğalından azad etmək üçün müqəddəs döyüşə başladı. Möhtərəm Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin haqq mübarizəsinə başlamaq əmri xalqa qol-qanad verdi, qürurla qarşılandı.***





Savaşın ilk günündən mərə kafirlərin üzərində qazandığımız hərbi uğurlar zəfər ovqatımızı daha da artırdı. Dövlət–ordu–xalq birləşərək dəmir yumruğa döndü, təcavüzkarın başına endirilən sarsıdıcı zərbəyə çevrildi. Bir-bir kəndlərimiz, strateji yüksəkliklər, rayon mərkəzləri işğaldan azad edildi. Şəhidlərimiz də oldu: üç minə qədər igid Vətən oğlu ərazi bütövlüyümüz uğrunda döyüşlərdə canından keçdi. Onların bir qismi elə müharibənin ilk günündə şəhidlik zirvəsinə ucalaraq Böyük Qələbənin təməlini qoydu. Bu yazıda çalışdığım Cənub bölgəsindən olan, cəmi bir gün vuruşsalar da, Zəfər tariximizin silinməz səhifəsinə imza atan igidləri xatırlamaq istəyirəm.





Lənkəranın Ürgə kəndində anadan olmuş Mehman Mirəziz oğlu Şirvanov Silahlı Qüvvələrimizin polkovnik-leytenantı idi. Əsgərləri ilə birlikdə, ön sırada hücuma keçməklə onları ruhlandırırdı. Elə müharibənin ilk günü Kəlbəcər ərazisində, Murovdağ uğrunda döyüşlərdə də öndə gedərək, qəhrəmancasına vuruşdu, canını Vətənə qurban verdi. Mehman Şirvanov Ölümündən sonra "Qarabağ" ordeninə layiq görüldü. Doğma kəndindəki izdihamlı dəfn mərasimində üzlərə həzin kədər çöksə də, başlar üzərinə qaldırılan üçrəngli bayraqlarımız qürurla dalğalandı, göyə atılan yaylım atəşləri qisasın mütləq alınacağını bildirdi. Alındı da! Müharibənin 44-cü günü şəhid polkovnik-leytenantın ruhu şad oldu!

...Sentyabrın 27-də Yardımlı rayonu baş çavuş Cavid Vaqif oğlu Zeynalovun (Mirimli kəndi) və müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu Elçin Sarvan oğlu Əliyevin (Kürəkçi kəndi) şəxsində ilk şəhidlərini verdi. Dağlar qoynunda yaşayıb-yaradan şair dostum Vahid Qasımzadə yazdı:

**Qəzəbi ürəyə sıxıb getdiniz,**
**Düşmənə nifrətlə baxıb getdiniz.**
**Yoxsa birdəfəlik çıxıb getdiniz,**
**Vətən oğulları, harda qaldınız?!**

Vahidin özünün də yaxşı bildiyi kimi, onlar Tanrı dərgahında ən yüksək məqama – şəhidlik zirvəsinə yüksəliblər. Cavidin də, Elçinin də Viləş çayının sahillərindən başlanan həyat yolları Füzulidə, Araz çayının sahillərində şərəflə sona yetib. Hər ikisi göstərdikləri igidlik nümunəsinə görə Prezident sərəncamı ilə döyüş medallarına layiq görülüblər.

Əslən Astara rayonunun Ərçivan kəndindən olan, Polşanın Belqoqrad qəsəbəsində doğulan, Azərbaycanın Füzuli rayonunda yaşayan Şahnur Şahin oğlu Hüseynov hərbçi ailəsinin övladı idi. Özü də Bakıda zabitlik təhsili almışdı. Tabor komandiri, kapitan idi, məlum Aprel döyüşlərində də iştirak etmiş, Lələtəpəyə bayrağımızı ilk sancanlardan biri olmuşdu. Vətən müharibəsi başlananda Füzulinin 7 kəndini işğaldan azad etdikdən sonra 8-ci kəndi uğrunda gedən şiddətli döyüşlərdə şəhid oldu. "Azərbaycan Bayrağı" ordeninə layiq görüldü. General olmaq istəyirdi, ondan da uca rütbəyə – şəhidlik məqamına çatdı.

Usta idmançı kimi tanınan, kross yarışlarının üççat Azərbaycan çempionu olan, Birinci Avropa Oyunlarının doğulub boya-başa çatdığı Astaradan keçən Məşəl yürüşündə öndə gedən Arif İsmayıl oğlu Qeybiyev müddətdən artıq xidmət edən hərbi qulluqçu idi. Beş illik hərbi karyerasının son bir ilini Füzuli rayonunda xidmət etmişdi. Elə orada da sentyabrın 27-də sübh tezdən başlanan döyüşlərdə fərqlənərək, şəhidlik şərbəti içdi. "Vətən uğrunda", "Cəsur döyüşçü" medallarına layiq görüldü. Səncərədi kənd məzarıstanında uyuyur.

Şəhid baş gizir Zülfi Ağalı oğlu Ağayev Astaranın Vaqo kəndində doğulub. Bircə gündə özünün qəhrəmanlığını təsdiq edə bildi. Orta təhsilini və həqiqi hərbi xidmətini başa vurduqdan sonra Müdafiə Nazirliyinin "Gizir hazırlığı kursu"na qəbul olunmuş, tankçı peşəsinə yiyələnmişdi. Müharibəyə qədər layiqli xidmətinə görə üç medal qazanmışdı, şəhidliyi ilə daha ikisinə layiq görüldü.

Masallı rayonunun Hişkədərə kəndində doğulmuş Zaur Vaqif oğlu Hüseynov kənd tam orta məktəbinin 9-cu sinfini, C.Naxçıvanski adına hərbi liseyi, sonra da Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirmişdi. Cəsur leytenant idi. Həmin gün sübh tezdən Füzuli istiqamətində başlanan şiddətli döyüşlərdə igid zabitimiz idarə etdiyi BMP-si ilə düşmənin bir neçə müdafiə istehkamını dağıtdı. Şəhid olsa da, qələbə arzusu 44 günə reallaşdı.

Anım günündə adlarını böyük ehtiramla yad etdiyimiz 27 sentyabr şəhidlərindən üçü Cəlilabad rayonunda boya-başa çatan gənclər olub. Baş gizir Murad Nadir oğlu Babayev, gizir Alxas Mirxas oğlu Yunusov Füzuli uğrunda, Həsən Turan oğlu Dəmirov Tərtər və Laçın uğrunda döyüşlərdə igidliklə həlak olular. Hər üçünün xatirəsi doğma rayonlarında daim ehtiramla yad edilir. Onlarda da Vətənə qurban getmək arzusunun "Hay ver mənə, leytenant" filminin qəhrəmanı Fərid Güloğlan oğlu Əhmədovun aləmə səs salmış hünərini eşidəndən sonra baş qaldırdığı şəksizdir.

Şəhid baş leytenantlar Xalid Həsən oğlu Gözəlov və Namiq Abış oğlu Mayılov isə Milli Qəhrəman Mübariz İbrahimovun həmyerliləri – Biləsuvar yetirmələridir. Xalid hərbi pilot kimi Qubadlının, Füzulinin üzərində dəfələrlə cövlan etdi, yağıların başına od yağdırdı. Şahin mayor Abbas Qasımovla növbəti döyüş tapşırığının yerinə yetirilməsi zamanı ikisi də həlak oldu. Abbasla Xalid Vətən müharibəsinin ən birinci şəhidləri sayılırlar.

Namiq Mayılov tank bölüyünün komandiri idi. 2016-cı ilin Aprel döyüşlərində də iştirak etmiş və yaralanmışdı. İnişil sentyabrın 27-də Füzuli rayonu uğrunda gedən döyüşlərdə qorxmadan düşmən üzərinə atılaraq ön cəbhə xəttini yaran Namiq Mailov onun bir neçə istehkam məntəqəsini və texnikasını məhv etdi. Füzuli istiqamətində bir neçə kənd irəlilədikdən sonra gedən şiddətli döyüşlərdə canına bərabər tutduğu tankı ilə birlikdə qəhrəmancasına şəhid oldu.

Bəli, heç kəs unudulmur, heç nə yaddan çıxmır. Şəhidlərimizin işıqlı ömür yolu hamımız üçün qürur, fərəh, zirvə yoludur.

***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***

Xalq qəzeti.- 2022.- 27 sentyabr.- S.4.